# Sehrli fırçanın nağıllar şəhəri



**Onun öz rənglər dünyası var. Baxırsan və sirrinə, sehrinə düşürsən. Rənglərin də öz ruhu olduğuna inanırsan. Söhbət fırçasının möcüzələri heyrət yaradan Əməkdar rəssam, professor İsa Məmmədovdan gedir.**

İsa Məmmədovun yaradıcılığını səciyyələndirən ifadə tərzinin impressionizm üslubundadır. Zaman-zaman müxtəlif janrlara müraciət etsə də, daha çox mənzərəyə üstünlük verən rəssam bir-birindən gözəl, rəngarəng tablolar ərsəyə gətirir. Mənzərə janrı vasitəsilə o, əhatə olunduğu gerçəkliyi, təbiətdən ilhamlanaraq aldığı xoş təssüratlarını sənətsevərlərə özünəməxsus bədii şərhlə çatdırır. Əsasən, kətan üzərində yağlı boya texnikası sayəsində işıq-kölgənin təzadı və qovuşuğundan məharətlə istifadə edir.

O, Zəngəzurda dünyaya göz açıb. İncəsənət zövqü kiçik yaşlarından formalaşmağa başlayıb. Əvvəlcə qarmon çalıb, amma bir də görüb ki, bu musiqi aləti onun cızma-qara etdiyi kağızın üzərində peyda olub. Rəsmə baxanlar cansız təsvirdən qarmonun həzin melodiyalarını duyublar. İlk “iş”lərini, beləcə, karandaşla kağıza, kömürlə daşa, divara, təbaşirlə lövhəyə çəkə-çəkə anlayıb ki, rəssamlıq onun ruhuna daha yaxındır, daha çəkicidir.

Bu həvəs onu 1974-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə gətirib. İlk müəllimi olan Rəşid Heydərzadədən sənətin bütün incəliklərini böyük sevgi ilə mənimsəyib. Orada təhsilini tamamlayan gənc rəssam bir müddət Moskvada da rəssamlıq dərsləri alıb. Sonra Vətənə qayıdaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəngkarlıq fakültəsinə daxil olub. Xalq rəssamları Mikayıl Abdullayev, Nadir Əbdürrəhmanov, Böyükağa Mirzəzadə kimi korifeylərdən öyrənib. Diplom müdafiəsi zamanı istedadını zəhmətkeş kəndli qadınların obrazları vasitəsilə bir daha göstərib. Kətan üzərində yağlı boya texnikası ilə təsvir etdiyi “Lerik qadınları” adlı çoxfiqurlu kompozisiyasını məharətlə ərsəyə gətirib. Tabloda kənd həyatı, ənənəvi geyimli qadınlar canlanıb. Müəllimləri baxıb “əhsən” deyiblər. Sonra onun rəsmləri müxtəlif miqyaslı sərgilərə “ayaq açıb”, diqqət çəkib, təqdir edilib.

İsa Məmmədovun yaradıcılığının ən önəmli cəhətlərdən biri də onun “Bakı” mövzusuna tükənməz sevgi ilə müraciət etməsidir. Gözəl paytaxtımıza adi insanlardan fərqli baxış bucağından yanaşması, təsvir etdiyi əsərlərinin mövzu sərbəstliyi, kompozisiya quruluşu, real həyata olan lirik, romantik münasibət ifadəsi seyrçiyə “gəl-gəl” deyir. Buna misal olaraq onun “Bakı mənzərəsi”, “Dənizkənarı Milli Park”, “Paytaxtın Nizami küçəsi”, “Payız” adlı mənzərə əsərlərini göstərə bilərik. Hər bir tablosundan fərdi müşahidələrin və ilkin təəssüratların bəhrələri boy göstərir. Fəsillər dəyişdikcə təbiətin dondan-dona düşməsi, açıq havada gözgörəti dəyişən rənglərin ahəngi rəssamı valeh etdiyi kimi, onlara tamaşa edənləri də ovsunlayır.

İlin müxtəlif çağlarının, günün çeşidli vaxtlarının rəngarəng koloriti “Bakı motivi”, “Vağzalyanı meydan”, “Bakı mənzərəsi”, “Fəvvarələr meydanı”, “Bakı. Bizim küçə”, “Bakının Milli parkı”, “Bakı vağzalı” və s. kimi bir çox mənzərə əsrlərində ecazkar əksini tapıb. Bizcə, ömründə bir dəfə də Bakıda olmayan, amma əsərlərini nümayiş etdirilib. Türkiyənin İstanbul şəhərində “Bakı” mövzulu, 2011-ci ildə Almaniyanın Bakı-Berlin qalereyasında fərdi sərgiləri ziyarətçilərinə doyulmaz zövq aşılayıb. Hamı görüb və sevə-sevə etirafda bulunub ki, İsa Məmmədovun müxtəlif janrlarda yaratdığı sənət əsərlərindəki özünəməxsus gözəllik duyumu onun zəngin daxili aləminin təcəssümüdür. Rəssamın rəngkarlıq tabloları reallığa o qədər yaxındır ki, istər-istəməz adama qeyri-adi təmiz dağ havasını, çiçəklərin qoxusunu hiss etdirir. Sənətkarın hər bir



İsa Məmmədovun rəsmlərinə baxmaq şərəfinə nail olan hər kəs elə bilər ki, kətan üzərində gördükləri gözünə, könlünə lap çoxdan doğma olan mənzərələrdir.

İsa Məmmədovun yurdumuzun dilbər guşələrinə vurğunluğunu da fırça dili ilə gözəl ifadə edib. Bu cənnətməkan diyarın ürəkaçan təbiətindən, əsrarəngiz gözəlliklərindən ilhamlanaraq təsvir etdiyi tablolarla tanışlıq əsl mənada riqqət yaradır. “Şəki mənzərəsi”, “Şəki motivi”, “Şəki. Kiş kəndi” və s. kimi əsərlərində rəssam Şəki təbiətinin füsunkarlığını öz əlvan palitrası ilə elə sərgiləməyə nail olub ki, adam duyğularını həmin rəsmlərə layiq şəkildə dilə gətirməkdə çətinlik çəkir.

Rəssamın “Payız” adlı ilk fərdi sərgisi Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi qalereyasında təşkil olunub. Sonra müxtəlif xarici ölkələrdə əsərinin arxa planında keçirdiyi dərin emosiyaları, təcrübələri, hiss və duyğuları dayanır.

Bu gün də onun bənzərsiz əsərləri Türkiyə, Rusiya, Fransa, İtaliya, ABŞ və s. kimi ölkələrdə nümayiş olunur, muzeylərdə, şəxsi kolleksiyalarda qorunaraq saxlanılır. Bu rəsmlər baxan hər kəsi Azərbaycan gözəllikləri qarşısında baş əyməyə vadar edir.

Ötən ildən Əməkdar rəssam fəxri adını daşıyan İsa Məmmədov UNESCO-nun nəzdindəki Rəssamlar Birliyinin üzvüdür. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rəngkarlıq kafedrasında pedaqoq kimi fəaliyyət göstərir. İlahi vergisi olan sənətinin incəliklərini gənclərə həvəslə öyrədir.

***Əli NƏCƏFXANLI,***
***Əməkdar jurnalist,***
***Ziyarət CABAROVA,***
***sənətşünas***